*Hekayə*

# Eşqin ölməzliyi



*Tarverdi ABBASOV*

Ömürlük həbs cəzası almışdı, Peşiman deyildi. İndi Cabbar üzüntülərlə keçək həbsxana həyatının hər anında bütün olub-keçənləri yenidən xəyalımda canlandıra-canlandıra yenidən gəlib söhbətin o yerinə çıxırdı ki, heç də peşiman deyil. Ayrı cür də edə bilməzdi. Özgə yolu qalmamışdı. Hələ gərək sonacan gedəydi. Onu bu işə vadar edənlərin, bu işdə barmağı olanların hamısının bir-bir cəzasını verəydi.

Həbsxana divarları arasında keçən bütün gününün söz-söhbəti bu cür başlayıb, bu cür də bitirdi. Bu təskinlik onun yeganə ümid, bəraət yeriydi. Həm də bunu gözünün-könlünün ilk ovu, canından belə çox sevdiyi nakam, bəxtsiz Gülsümünün xatirəsi önündə bir vəfa borcu bilirdi. Öz kasıb, kimsəsiz canının mərdlik, ərlik-ərənlik nişanəsi hesab edirdi.

Sıxıntı içində böyümüşdü. Amma bir olan Allahı ona sevən ürək vermişdi. Onu qəlbən duyan, qədrini bilən Gülsümü var idi. Bir ilə yaxın idi ki, nişanlanmışdılar. Toyun gecikməsinə səbəb imkansızlığı idi. İstəyirdi ki, Gülsümün adına layiq toy tədarükü etsin. Onun qəlbi sıxılmasın. Tay-tuş yanında başıaşağı olmasın. Amma vaxt keçirdi. Cabbara məsləhət verənlər də var idi ki, əşi, kasıb oğlansan, özünü çox bərkə salma, halal nişanlındı, gecənin birində vur qoltuğuna, çıx aradan. Sonrası asandı, bir-iki ağsaqqal yollayarsan evlərinə, barışıq olar. Qızın ata-anası da xətrini çox istəyirlər. İmkanlarını bilirlər. Özləri də könlü-gözü tox adamlardı. İşi gecikdirmə. Gün-gündən pis gəlir.

Hər gün bir qənbərqulu çıxır ortaya. Atalar deyib qız ağacı, qoz ağacı, hər yetən selbə atıb keçir. O da ölmüş Gülsüm kimi bir ay parçası ola... Əlli tərpən, günü-günü satma... Bu barədə Gülsümün də ağzını aramışdı Cabbar. “Mən səninəm, ürəyin necə istəyir o cür olsun” - demişdi Gülsüm.

Amma Cabbar yenə də qıymamışdı Gülsümə, onun doğmalarına. İstəməmişdi arada sınıqlıq olsun. Kredit yoluyla bankdan pul götürmüşdü. Bu barədə Gülsümə də bildirmiş, toya hazırlaşdığını demişdi. Məsələdən halı olan qız evi də xoşhal olmuşdu; kasıblığına baxmayaraq mərd oğlandı. İstəyir tay-tuşdan geri qalmasın. Hər şey el adətincə olsun. Zəhmətlə böyüyüb, zəhmətlə təhsil alıb. Hər işini özü görməyə alışıb. Xeyirli olsun...

Amma sən saydığını say, gör fələk nə sayır?.. Həmişə özünü işdən evə vaxtında çatdıram Gülsüm həmin gün gəlib çıxmadı ki, çıxmadı. Narahat olan atası Kazım kişi əlacsız qalıb onun işlədiyi məktəbə yollandı. Qapı bağlı idi. Kazım kişi bir məktəb qapısının ağzına vurulmuş iri kilidə baxdı, bir ətrafa boylandı, dönə-dönə göz yetirdi, kimsə gözünə dəymədi. Qaralmış buluda döndü. Elə o vəziyyətdə də geri dönüb vəziyyəti arvadına danışdı... İlk gümanları gələn yer yenə də Cabbar oldu: - Bəlkə şeytan ağıllarını oğurlayıb?..

- Nə bilim vallah! İnsan çiy süd əmib. Amma Cabbar o yerin uşağı deyil axı...

- Ayağını bir o səmtə qoy. Gör bir xəbər tuta bilirsənmi...

Kaş düşündükləri kimi olaydı. Kaş Gülsüm elə halal-hümbət nişanlısı Cabbara qoşulub gedəydi. Ana ürəyi, ata qəlbi dinclik tapardı... Olmadı elə. Elə bil yağlı əppəyə dönüb göyə çəkilmişdi Gülsüm. Yox idi heç harda. Qonum-qonşu bir-birinə dəydi. İşə polis qarışası oldu...

Gümanlar min yerə getdi. Bütün nəzərlər gəlib qız anasının üstə dayandı; bu qız quş olub göyə uçmadı ki? Şübhələnib-elədiyi varmı?

Yazıq arvad suçlu adam kimi ərini bir kənara çəkdi:

- Kazım, yadındamı, sənə demişdim aşağı məhəllədən olan Həsən barədə... Gülsümün arxasınca düşürdü. Bir dəfə abrını ətəyinə də bükmüşdüm. İmanım Allah amanatı, deyir itiyi itən anasının qoynunu gəzir. Bəlkə əlaltından maraqlanasan... Məhlə oğlanlarından bir-ikisi də yanında fırlanır həmişə. O uşaqlar gözünün önünən heç getmir.

Kazım kişi həyalı adam idi. Durub qapı-qapı qızını soraqlamağa ayağı getmədi. Gümanını Cabbarla bölüşdü. “Ağızlarını arayaram” - deyib aşağı məhləyə yollandı Cabbar. Əvvəlcə İlqar çıxdı qarşısına. Kələfin ucu onda olacaqdı. Kirimişcə qatlama bıçağı dirədi İlqarın böyrünə: - İlqar, düzünü de, Gülsüm hardadı? O yan-bu yana burcutma. Yoxsa yortacam...

Dili topuq vurdu İlqarın. Qatlama bıçağın zəhmi öfkəsini ağzına gətirdi. Qanı dondu. Handan-hana dil tökub, yalvarımağa başladı:

- İnan Allaha ki, Gülsümün ölümündə mənim əlim yoxdur. Həsənlə Qulu törətdi hər işi. Həsən üçün qaçıracaqdıq Gülsümü... Gözlədik. Gülsüm məktəbdən çıxdı. İmkan düşən kimi götürüb Həsənin maşınına basdıq. Apardıq meşəyə. Fikrimizi ona bildirdik. Daş atıb-başını tutdu. Ölərəm, Cabbarsız yaşaya bilmərəm deyib durdu. Həsən nə qədər dil tökdüsə, yola gətirə bilmədi. Əlacı kəsiləndə bizə dedi ki, daha bunu belə qoymaq olmaz. Öldürüb dilini kəsməsək hamımızı güdaza verəcək. Dedi qorxmayın. Heç kimin ağlına gəlməz ki, bu işi biz eləmişik... Dedi və deməyilə də Gülsümün başına ağır zərbələr endirməyə başladı: - Madam ki, mənim deyilsən, heç kəsin də olmayacaqsan. Get o dünyada yetim Cabbarın xəyalıyla yaşa.

Gözü qızmışdı. Zərbəni zərbə dalınca vurdu. Nəfəsi kəsiləncə... Sonra da çala qazıb atdıq ora. Üstünü torpaqladıq. Qayıtdıq kəndə. Sonra Cabbar İlqarı qabağına salıb hadisə yerinə aparmışdı. Göstərilən yerdən Gülsümün cansız bədənini çıxarıb yükləmişdi İlqarın belinə. Qabağına qatıb gətirmişdi Kazım kişinin həyətinə.

Vay-şüvən qoymuşdu. Sonra Cabbar qatlama bıçağıyla Qulunu candan eləyib həyətdən çıxmışdı. Qəzavü-qədər hərləyib-fırlayıb Həsəni qarşısına çıxarmışdı. Onu duyuq salmamaq üçün mümkün qədər yumşaqlıqla soruşdu: - Həsən, xeyir ola, nə yaman tələsirsən?

- Bakıya çıxacam - dedi Həsən. Amma dili dolaşdığı apaydın görünürdü.

- Bəs Qulunu niyə özünlə aparmırsan? İlqarı niyə unudubsan?

Həsən elə bil yatmışdı, yuxudan oyandı. Sınrıxıb aradan çıxmaq istədi. Amma bacarmadı. Cabbarın qatlama bıçağı böyrünə dirənmişdi: - Qulunu soruşuram.

- Qaçıb. Deyirdi Urisetə gedəcəm, - kəkələdi.

- Qoy qaçsın. Sən də ürəyini buz kimi saxla, əvvəl-axır tapıb onu da sənin gününə Salacam.

Dedi və Həsənin cəsədini yolun ortasında qoyub milis idarəsinə yollandı...

* * *

...İstintaq başa çatdı. Məhkəmə yekunlaşdı. Cabbar bütün izahatları boyunca bircə dəfə də olsun İlqarın adını çəkmədi. Elə bil o adda adam heç həyatda olmamışdı. Uzaq ölkədə olsa da, İlqar işin gedişini yaxınları vasitəsilə izləyirdi. Öyrəndi ki, Cabbar hər iki dostunu o dünyalıq edib. Öz ayağıyla polisə gedib. Məhkəməsi olub. Cəzasını kəsiblər. Daha nə olası idi ki? Onun qətldə iştirakını bilən adamın üçü də o dünyada idi. Şahid qalmamışdı. Cabbar da bu barədə bir şely bilsəydi izahatında, məhkəmədə nəsə deyərdi. Deməli, salamatçılıq idi. Səssiz-küysüz Vətənə qayıtmaq olardı. Belə düşünmüş, belə anlamış və doğma kəndinə dönüb əmin-arxayın, heç nə olmamış kimi gəzib-dolanmağa başlamışdır.

...Cabbar ona hökm oxunandan az sonra məhkəmə salonundan çıxarılanda onu döşünə salıb aparan milis nəfərinin nəzarəti altında Gülsümün ata-anasıyla vidalaşdı. Xahiş etdi ki, nə vaxt Gülsümün məzarını ziyarət etsələr onun da əvəzindən dua oxutsunlar, gül aparsınlar...

Vəssalam, zavallı ata-ananı Gülsümün məzarı, Cabbarı isə uzaq Sibirin gedər-gəlməzi gözləyirdi.

Ara kəsildi. Əlaqə itdi. Araya ayrılıq buzu düşdü. İllərin sazağı, torpağın soyuq üzü çox şeyi unutdurdu, Get-gedə bütün söz-söhbətlər bitdi, səssizliyə qovuşdu. Elə bil kənd Camaatı yuxu görmüşdü; Səhər açıldı. Yuxu yaddan çıxdı. Hər kəs öz işinin-gücünün arxasınca getməyə başladı.

Unutmayın bircə Cabbar oldu. Alacağı qisas hissi onu bir an da olsa tərk etmədi. Alacağı intiqam hissi ona güc-qüvvət verdi. Özünü o günə hazırladı. Yollar aradı həbsxanadan qaçmaq, son borcunu ödəmək üçün. Gecəli-gündüzlü planlar qurdu, yollar düşündü. Bənd-bərəni bələdlədi. Çıxış-giriş yolunu bələdilədi. Nəhayət bir gün həyəcan siqnalı aləmi başına götürdü: - Dustaq qaçıb! Bütün nəzarət-yoxlama məntəqələrinə xəbərdarlıq edilsin! Amma gec idi. Olan olmuşdu. Axtarışlar, edilən cəhdlər hədər idi...

* * *

Cabbar Qulu ilə tanış yol ayrıcında rastlaşdı. Nəzərləri bir-birinə dikilib qaldı. İşin nə yerdə olduğunu handan-hana anlayan Qulu dönüb qaçmaq istədi. Amma gec idi... Qatlama bıçaq bu dəfə onun kürəyinə saplanmışdı. Çabası əbəs idi. İş-işdən keçmişdi... İş tamamlanmışdı.

Bircə imkan eləyib Gülsümün məzarını ziyarət etmək qalmışdı. Onu da etdi. Göz yaşı içində boğula-boğula: - Bu son mənzilində rahat uyu, Gülsüm - deyirdi. - Aldım qisasını. Tifaqımızı dağıdanların anasını ağlar qoydum. Ruhun nigaran qalmasın, axirət dünyada rahat uyu.

Sonra da tanış yolla milis idarəsinə doğru irəlilədi. Rahat nəfəs alırdı. Arzu edəcəyi nəsə qalmamışdı. Gözünü zilləyib baxdığı məchulluqdan Gülsümün doğma, əziz çöhrəsini gülümsəyən görürdü...

...Bütün sorğu-suallar yenidən başlandı. Baş verənlər yenidən xatırlandı, kağızlar yazıldı, imzalar atıldı. Cinaəyətinin ağır olduğu şəksiz idi. Amma bunu etməliydi, etməyə bilməzdi, o dünyaya Gülsümün yanına üzüqara gedə bilməzdi. Qəbri od tutub yanardı. Ömrü haram olardı. Gülsümün baxışlarını küskün görərdi...

Qərarsa gözlənilməz oldu... Onun qaçış planı həbsxana mühafizəsi üçün yeni ideya vermişdi. “Həbsxana tuneli”nin haradan keçməsinin sirri aşkar edilmişdi. Bunu nəzərə aldılar. Cinayətin motivində dayanan haqsızlığı, törənmə Səbəbini nəzərə aldılar və hökm oxudular ki, yalnız əvvəlki cəza müddəti qüvvədə qalsın...

Cabbar rahat nəfəs aldı. Düşünürdü ki, daha bu dünyada görüləsi bir işi qalmayıb. O dünyadasa nakam Gülsümü gözləyirdi onu. Qəbirlərinin qoşa qazılacağı günün havasına uçunurdu Cabbar...

***2023***